UOT 338.43
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.294

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA YENİ TURİZM NÖVLƏRİNİN İNKİŞAFI ÜÇÜN İMKANLAR

**HƏBİB ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: habib.zeynalov085@gmail.com*

## Giriş

Turizm sektoru müasir dövrün ən dinamik inkişaf edən sahələrindən biri olmaqla, iqtisadiyyatın müxtəlif istiqamətlərini əhatə edir. Bu sahə həm sosial-iqtisadi inkişafın təminatında, həm də regionların tanıdılması və mədəni irsinin qorunub saxlanılmasında mühüm rol oynayır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası zəngin təbiəti, tarixi abidələri və unikal mədəni irsi ilə turizm potensialına malik bir regiondur.

Naxçıvan Muxtar Respublikası qədim tarixi ilə yanaşı, müasir infrastrukturunun inkişafı və təbii resurslarının müxtəlifliyi ilə də diqqət çəkir. Regionun turizm potensialının səmərəli istifadəsi üçün ənənəvi turizm növləri ilə yanaşı, yeni turizm istiqamətlərinin inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu, həm yerli, həm də xarici turistlərin marağını artırmaqla yanaşı, muxtar respublikanın iqtisadiyyatına mühüm töhfələr verə bilər. Naxçıvanın turizm imkanlarının qlobal səviyyədə tanıdılması və iqtisadi potensialının artırılması baxımından xüsusilə vurğulanmalıdır. Regionun strateji coğrafi mövqeyi, zəngin biomüxtəlifliyi və mədəni irsi, həmçinin müasir turizm tələblərinə uyğun infrastrukturun mövcudluğu bu sahənin genişləndirilməsi üçün əhəmiyyətli əsas yaradır.

## Dağ- xizək və kanat turizm növləri

Yeni iqtisadi inkişaf strategiyasının əsaslandırılmasında dağ və qış turizminin rolu vardır. Həmin turizm növü makroiqtisadi zəmində ölkəmizin və onun ayrılmaz tərkib hissəsi olaraq muxtar respublikamızın perspektivli istiqamətlərindən hesab olunur. Həmçinin, bu növ həm də ölkəmizin əsasən dağlıq ərazilərinə xas olan bir anlayış kimi təşəkkül tapmaqdadır. Təbii ki, ölkədə turizmin inkişaf perspektivləri əhatəlidir. Həmin ərazilərdə əsasən təbiətlə bağlılıqda olmağı sevən, təbiətin sərvətləri kimi vəhşi heyvanları və orada olan quşları izləməyi sevən insanlar çoxdur. Eyni zamanda, bu, riskli və idmanın təhlükəli növlərinə üstünlük verən insanların aid olduğu ayrıca turist bölmələrinin təklif etdiyi növ olur [1].

Məhz bu mənada qeyd etmək olar ki, yeni iqtisadi prioritetlər əsasında dağ və qış turizminin perspektivliliyi ilə əlaqədar reallaşdırılmış tədbirlər nəticəsində muxtar respublikanın əksər dağlıq bölgələri turizm destinasiyası olaraq cəlbedici olmaqdadır. Həmin proseslərin tənzimlənməsi fonunda Şahbuz rayonunun potensialı diqqəti çəkməkdədir. Belə ki, rayonun eyniadlı kəndində “Ağbulaq İstirahət Mərkəzi və Ağbulaq Xizək Mərkəzi yaradılmışdır. Həmin kənd dəniz səviyyəsindən 2000 metr yüksəklikdə olmaqla, daha möhtəşəm coğrafi mövqeyi ilə seçilir. Qeyd etmək olar ki, Ağbulaq İstirahət Mərkəzində yüksək xidmət şəraiti təşkil olunmuşdur ki, bu da, xüsusi turizm məkanı olaraq önəmlidir. Naxçıvan Muxtar Respublikasında qış turizminin perspektivləri üçün reallaşan davamlı tədbirlərin ifadəsi olaraq burada ümumi uzunluğu 1500, eni isə 30 metr olan dağ-xizək mərkəzi də istifadəyə verilmişdir. Həmçinin xizək məqsədli eniş zolağı, kanat xətti, xizəksürmə üçün təlim zonası, əyləncə və uşaq parkları yaradılıb, süni qaryaratma sistemləri təşkil olunmuşdur. Hazırda mərkəz tanınmış istirahət sisteminə çevrilməklə, yerli sakinlərin qış istirahətinin keyfiyyətli təminatı üçün çox aktualdır [2].

Qeyd edək ki, muxtar respublikada qış və xizək turizminin inkişafı məqsədilə yenə də böyük potensial var. Belə ki, dağ xizəkçiliyinin inkişafı səmərəli təbii şəraitlə əlaqəlidir. Həmin turizm növünün perspektivliliyi məqsədilə mühüm məqam əsasən ilin 4-5 ayı üzrə yağan qar örtüyünün zəruri həcmdə olmasıdır. Burada ərazinin landşaftın fərqliliyi, relyef göstəriciləri, hava şəraiti, uçqun ehtimalı və sel təhlükəsizliyinin təminatı dağ-xizəkçilik turizminin dinamikasını artırır. [2]

Göstərilən məqamlar üzrə fəaliyyət göstərən turizm strukturlarının əsas tərəflərindən biri olaraq onların mövsümi şəkildə fəaliyyət göstərməsindən ibarətdir. Lakin hazırda bu istirahət mərkəzləri həmin məsələni aradan qaldırmaq üçün bəzi tədbirlər reallaşdırır. Həmin tədbirlərə, süni qaryağdırma sisteminin yaradılması, fərqli kimyəvi qarışıqların olması, qar örtüyünün möhkəmləndirilməsi aiddir ki,

indiki şəraitdə də bütün qış turizm mərkəzlərində bunlardan istifadə olunur.

Bu sahədə mövcud qış turizm mərkəzlərinin inkişafında İsveçrənin, İtaliya və Avstriyanın təcrübələri qənaətbəxşdir. Belə ki, həmin ölkələrdə təxminən 10%-dən 40%-ə qədər süni qardan istifadə olunur. Ehtiyac yaranarsa, digər yerlərdən də qarın alınması metodu da nəzərə alınır. Qeyd edək ki, bu məqsədlərlə Norveçin dağlarından Danimarka kurortlarına bərə ilə qar gətirilməsini göstərmək olar.

Turizmin inkişafında üstünlük verilən mexanizmlərdən biri olaraq, kanatı qeyd etmək olar ki, bu da Ağbulaq istirahət mərkəzində yaradılmışdır. Kanat mərkəzin mühüm infrastrukturuna aid olunur. Yaradılmış kanat yolunun uzunluğu 952, onun başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi isə 267 metr təşkil etməkdədir. Həmin kanat yolunda səmərəli istifadə imkanları yaradılmışdır. Etibarlı turizm təsisatları nəticəsində burada hər biri 4 yerlik olmaqla, 58 oturacaq yeri var ki, bu da, saatda 1000-dən artıq insana xidmət edə bilir. Eyni zamanda, burada 20 min kubmetr tutumu olan süni göl də turistlərin səyahətinə rəng qatır [2].

Turizm üçün kanat (yol – cığır) sistemi zəruri amildir. Belə ki, bu, istənilən qonaq üçün məqbul olan enmə zolağını, mailliyini və çətinlik dərəcəsini (yüksək, orta və ya aşağı çətinlik dərəcəsi) müəyyən etmək məqsədini daşıyır. Əsasən həm dağ yamaclarının kənarı ilə, həm də düzənlik sahələrdə enmə xətlərinin təşkilində bu mexanizmdən istifadə olunması məhsuldar üsul olmaqla birlikdə, həm də xizək sevənlərdə pozitiv təəssüratların yaranmasına yol açacaqdır [3].

Turizm infrastrukturunun yaradılması və səmərəli təşkili məqsədləri içərisində çimərlik turizminin rolu da böyükdür. Fərqli iqlimə, əhatəli təbiətə malik muxtar respublikamızın mühüm xüsusiyyətlərindən biri də yay fəslinin isti olmasıdır. Belə şəraitdə əhalinin istirahətinin məhsuldar təminatı məqsədilə muxtar respublikada zəruri işlər reallaşdırılır. Qeyd edək ki, muxtar respublika çimərlik turizmi üzrə də zəngin potensiala malikdir. Həmin potensialdan səmərəli yararlanmaq məqsədilə bir sıra yerlərdə çimərliklər yaradılmışdır. Bunlar:

- çayların uzərində yaradılan çimərliklər;
- göllərdən istifadə üçün nəzərdə tutulmuş çimərliklər;
- kanalların müəyyən bir hissəsində yaradılan çimərliklərdən ibarət olmaqdadır.

**Təbiət və əyləncə turizm növləri**

Müasir iqtisadi şəraitdə turizm məqsədləri içərisində muxtar respublikada mövcud olan çimərliklərin rolu daha da çoxalır ki, onların da sayının artırılmasına diqqət göstərilir. Bu məqsədlə yaradılan çimərliklər də olduqca səmərəlidir. Həmin turizm növünün perspektivlərini artırmaq məqsədilə çimərlik ərazilərində xidmət infrastrukturları təyin olunmuş standartlara müvafiq təşkilatlandırılır. Bu, məqsədlə, çoxnövlü yeni xidmətlər də təklif olunmalıdır. Təbii ki, muxtar respublikada da bu turizm növü üzrə ən səmərəli nəticə turizm mövsümünün uzun olması ilə mümkün ola bilərdi.

Bir qayda olaraq, çimərlik turizmi üçün zonalar qurularkən müəyyən olunan ən mühüm qaydalar:

- istifadə suyun təmizliyindən;
- yaradılmış uyğun infrastrukturdan;
- göstərilən turizm xidmətlərinin səviyyəsindən ibarətdir [4].

Muxtar respublikada çimərlik turizmi məqsədilə yaradılmış "Uzunoba" çimərliyi də faydalılığı ilə seçilir ki, bu sahədə də yetkin infrastruktur təsisatları gücləndirilmişdir. Qeyd etmək olar ki, ərazidə mövcud olan Uzunoba Su Anbarı yaxınlığında yeni Naxçıvan şəhər çimərliyi də yaradılmışdır. Burada təmin olunmuş qumlu sahil xəttinin uzunluğu 280 metr təşkil edir və turistlər üçün səmərəli xidmət göstərir.

Qeyd edək ki, burada bütün yaş qrupları üzrə, xüsusilə də, böyüklər və uşaqlar üçün yaradılan çimərlik iki hissədə qurulmuşdur. Birincilərin istirahəti üçün ayrılan bölmənin suyunun dərinliyi 4 metr olmaqla, suyun üzərində çimərlik həddinin bitdiyini göstərən məhdudlaşdırıcı nişanlar düzəldilmişdir. Həmin çimərlik bölgəsində insanların rahatlığı məqsədilə zəruri şərait qurulmuşdur. Ərazidə kölgəliklər, günəşlənmələr, paltardəyişmə bölmələri, çimmək, duş alma bölmələri, oyun hissələri, futbol və voleybol sahələri, həmçinin avtomobil saxlamaq üçün yerlər qurulmuş, ictimai-iaşə xidməti yaradılmışdır. Burada çimərliyə xidmət olunması məqsədilə inzibati bina da istifadəyə verilmişdir. Həmin binada iş və idarəetmə otağı, çayçı, kafe, mətbəx, anbar və mağaza yer almışdır.

Uzunoba Su Anbarının üzərində 3 istirahət köşkü istifadəyə verilmişdir ki, onların da hər birinin sahəsi 20 kvadratmetrdir. Burada həmçinin 15 metr uzunluğunda platforma da yaradılmışdır. Həmin şəraitdən su idman növləri ilə məşğul olmaq üçün

də istifadə olunur. Eyni zamanda, ərazidə su velosipedləri və motosikletləri də turistlərin istifadəsinə təklif olunur. Həmçinin, bu çimərlikdə təmin olunmuş müşahidə qüllələri və zərurət olduqda ilkin tibbi yardım məntəqələri səyahət edənlər üçün nəzərdə tutulmuşdur. Bunlarla yanaşı, ərazidə üzgüçülük mexanizmləri quraşdırılmış, istirahət kabinələri yaradılmış, məlumatlandırıcı güşələr ayrılmışdır. Digər tərəfdən, çimərliklərdə xilasedici qayıqların da fəaliyyəti təmin olunmuşdur. Təşkil olunan şərait turistlərin və yerli əhalinin yay fəslindəki rahatlığını faydalı keçirmələri məqsədilə çox səmərəlidir.

Naxçıvan Muxtar Respublikasının turizm infrastrukturunun səmərəliliyi burada ornitoloji (quş izləmə) turizmin də təşkili üçün imkanlar yaradır. Turistlərin maraqlarını çəkən istirahətini təmin edən məşğuliyyət növlərindən biri olaraq quşlara baxmaq onlar üçün bir məqsəddir. Əsasən, Göy üzünün buludsuz və açıq mavi rəngində sərbəst uçmaq istəyi mütəxəssislərin, filosofların və zəhmətkeşlərin fikirlərində xoş təsirlər yaradır.

Bu mənada muxtar respublikanın həm çay olan ərazilərində, həm də çay kənarında təbiət qoynunda çox sayda mövcud olan quşların nəğməsi insana mənəvi rahatlığın və dincliyin gətirilməsi olduqca vacib təsirə malikdir. Bunlarla yanaşı, ərazidə qış mövsümündə olan quşlar soyuq havanın gəlməsi ilə əsasən cənub ölkələrinə gedirlər. Ancaq bir çoxu isə köhnə yaşayış məskənlərində hətta qışda da qalırlar. Məhz qış fəslində quşları seyr etmək, xüsusilə, uşaqlar üçün əhəmiyyətli bir maraq olur.

Turizm növləri içərisində Atçılıq turizminin də özünəməxsus yeri və önəmliliyi vardır. Bu turizm növü eyni zamanda idman turizminin tərkib hissəsi olub, at belində və ya xüsusi ekipajlarda səyahət və ya fərqli maneələrin (aşırım, meşə, çay) aşılması ilə ifadə olunur. Bu turizm sahəsinin əsas məqsədi at yarışları ilə bağlı tədbirlərdən (gəzinti, yarış, tamaşa və s.) ibarət olan zaman keçirməkdir. Təbii ki, atçılıq turizmi hər keçən il daha çox izləyici cəlb edir. Bu mənada, həmin turizm növü, həm örtülü maşınlarda, həm də piyada olmaqla kürəyində çanta gəzintiyə getməkdən çox səmərəli ola bilir. Bununla eyni zamanda, atçılıq idman növü kimi də insan səhhətində pozitiv yerə malik olmaqla, hətta hər bir yaşlı üçün də mümkündür. Həmin növ həmçinin səsli-küylü şəhərlərin kənarlarına uzaqlaşaraq təbiətə qatılmaq imkanı yaradır.

Xüsusilə, at belində səyahətlərin, bu sahədəki turizm fəaliyyətinin və idman növlərinin bütövlükdə insan səhhətinə xeyri böyükdür. Belə ki, mənzərəli təbiətin təmiz qoynunda at belində reallaşan turist hərəkətlənmələri müvafiq sahə üzrə fəal istirahətin istənilən tələblərinə uyğun gəlir.

Mahiyyətinə görə atçılıq turizmi geniş və əhatəli turizm növünə aid olunur. Çünki, uşaqlı-böyüklü hər kəs bu turizm növünə ehtiyac duyur. Digər tərəfdən, bu cür turların yaradılması ilə məşğul olan turoperatorlar bütün hallarda azyaşlı turistlərin balaca atlarla (poni) gəzintisini təmin edirlər. Burada əsas tələblərdən biri olaraq təbii ki, atçılıq gəzintiləri bölmələrinin hər bir iştirakçısının at sürmək istiqamətində müvafiq bacarıqlara malik olması əsas götürülür.

Təbii ki, bu mənada atçılıq səyahətləri digər turlardan çox səmərəlidir. [5]

Xüsusilə, yay mövsümündə ailəvi şəkildə olmaqla, gəzintiyə çıxmaq, bu istiqamətdə xidmət müxtəlifliliyi və uyğun qiymətləri ilə fərqlənən ərazilərə getmək xoş olur. Məhz Naxçıvan Muxtar Respublikasında reallaşan işlər sayəsində hazırda qədim diyarımızda həmin keyfiyyətlər ilə fərqlənən əksər istirahət məkanlar təşkil olunub. Bunlardan biri kimi Babək rayonunun Badaşqan kəndində olan Naxçıvan Atçılıq və İstirahət Mərkəzini qeyd etmək olar. Bu mərkəz özünəməxsus mənzərəsi ilə görənlərin diqqəti çəkir. Mərkəzin sahəsi 3 hektar olub, özündə 20 nəfərin məşğulluğuna zəmin yaradır. Çox istiqamətli yaşıllıq bölmələri, rahat avadanlıqları, oturacaqlar, salonları, kupelərin müasir arxitektura ilə təşkili istirahət üçün gələnlərdə xoş təəssüratlara səbəb olur.

Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı üçün Zəngəzur dəhlizinin açılması əhəmiyyətli strateji üstünlüklər yaradır. Zəngəzur dəhlizinin turizm üçün yaratdığı logistik üstünlüklər daha çox investisiya cəlb olunmasını təmin edəcək. Bu dəhlizin rolu xüsusilə turizm növlərinin inkişafı baxımından diqqətə layiqdir.

## Nəticə

Naxçıvan Muxtar Respublikası zəngin tarixi, təbii və mədəni resursları ilə Azərbaycanın turizm sektorunda xüsusi yer tutur. Regionda yeni turizm növlərinin inkişafı üçün mövcud resursların düzgün idarə edilməsi və infrastrukturun istiqamətlənməsi ilə mümkün olacaq.

Bu məqsədlərə nail olmaq üçün Naxçıvan Muxtar Respublikasında müasir turizm strategiyalarının işlənməsi, yerli və xarici investorların cəlb edilməsi, turizm xidmətlərinin keyfiyyətinin artırılması daha önəmlidir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında yeni turizm növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Bu istiqamətdə həyata keçiriləcək məqsədyönlü fəaliyyətlər regionun iqtisadi və sosial inkişafına mühüm töhfə verəcək, yerli əhalinin rifahını artıracaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: İqtisad universiteti, 2011, 494 s.*

*2. Cabbarov Ə.X. Mənalı istirahət və turizm mərkəzi Ağbulaq. "Şərq qapısı" qəzeti,16.02.2021-ci il.*

*3. Turizmin inkişafı üçün tədbirlər davam etdirilir. "Şərq qapısı" qəzeti, 03.05.2021-ci il.*

*4. Azərbaycanda dəniz turizminin inkişafı üçün zəruri islahatların əsas istiqamətləri. "Gənc İqdisadçı" Proqramı. Bakı: 6 mart 2019-cu il.*

*5. Həsənov S. At haqq-ədalət uğrunda savaşan bir xalqın mübarizlik simvoludur, "Şərq qapısı" qəzeti,19.07.2016-cı il.*


## XÜLASƏ


Məqalədə turizmin xüsusiyyətləri, ölkə iqtisadiyyatında oynadığı rol və növlərdən ibarət olan mövcud infrastruktur qeyd olunur. Turizm məhsulu isə, bu növlər üzrə müxtəlif təcrübələr və xidmətlərdən ibarət olmaqla, səyahətçilərə rahatlıq, əyləncə, digər məqsədlərini reallaşdırmaq üçün bir sıra əsaslar təqdim edir. Naxçıvan Muxtar Respublikasında mövcud potensial və perspektivlər, təbii gözəlliklər, zəngin tarixi və mədəni irsi olan yeni turizm növlərinin inkişafı üçün geniş imkanlara malikdir. Regionda turizm sektorunun şaxələndirilməsi və müxtəlif turizm növlərinin tətbiqi, iqtisadiyyatın inkişafını sürətləndirə, həmçinin sosial və mədəni həyatın zənginləşməsini təmin edə bilər. Yeni turizm istiqamətlərinin inkişafı, regionun təbii və mədəni sərvətlərini qorumaqla yanaşı, ekoloji və iqtisadi davamlılığın təmin olunmasına da xidmət etməlidir. Bu sahədə, müasir turizm infrastrukturunun yaradılması, regionun coğrafi xüsusiyyətlərinə uyğun innovativ turizm məhsullarının hazırlanması və yerli sahibkarların cəlb edilməsi çox vacibdir.

Naxçıvan Muxtar Respublikası turizm potensialı baxımından unikal xüsusiyyətlərə malikdir və burada turizm növlərinin aktivləşməsi regionun iqtisadiyyatına müsbət təsir edə bilər. Qeyd etmək olar ki, turizm fəaliyyətləri Naxçıvanın həm yay, həm də qış mövsümündə turistlər üçün cəlbedici bir məkana çevrilməsinə imkan yaradır.



**Açar sözlər:** *Turizm, turizmin xüsusiyyətləri, turizmin növləri, turizm məhsulu, turizm infrastrukturu.*



**Habib Zeynalov**
***Nakhchivan State University***


## Technology of catering in the hotel complex
## SUMMARY


The article notes the characteristics of tourism, its role in the country's economy and the existing infrastructure consisting of types. The tourism product, consisting of various experiences and services in these types, provides travelers with a number of bases for comfort, entertainment, and realizing their other goals. The existing potential and prospects in the Nakhchivan Autonomous Republic, natural beauties, and rich historical and cultural heritage, have wide opportunities for the development of new types of tourism. Diversification of the tourism sector in the region and the introduction of various types of tourism can accelerate the development of the economy, as well as ensure the enrichment of social and cultural life. The development of new tourism directions should serve to ensure ecological and economic sustainability, in addition to protecting the natural and cultural resources of the region. In this area, it is important to create a modern tourism infrastructure, prepare innovative tourism products in accordance with the geographical characteristics of the region, and attract local entrepreneurs.

The Nakhchivan Autonomous Republic has unique characteristics in terms of tourism potential, and the activation of types of tourism here can have a positive impact on the economy of the region. It can be noted that tourism activities allow Nakhchivan to become an attractive destination for tourists in both summer and winter.



**Key words:** *Tourism, characteristics of tourism, types of tourism, tourism product, tourism infrastructure.*

**Хабиб Зейналов**
***Нахчыванский Государственный Университет***

**Технология организации питания в гостиничном комплексе**

**РЕЗЮМЕ**

В статье упоминаются особенности туризма, его роль в экономике страны, а также существующая инфраструктура различных типов. Туристический продукт, состоящий из различных впечатлений и услуг этих типов, предоставляет путешественникам ряд основ для реализации своих целей в области комфорта, развлечения и других целей. Имеющийся потенциал и перспективы, красота природы, богатое историческое и культурное наследие в Нахчыванской Автономной Республике открывают широкие возможности для развития новых видов туризма. Диверсификация туристического сектора региона и внедрение различных видов туризма могут как ускорить развитие экономики, так и обеспечить обогащение социальной и культурной жизни. Развитие новых туристических направлений должно служить обеспечению экологической и экономической стабильности, а также защите природных и культурных ресурсов региона. В этой сфере большое значение имеют создание современной туристической инфраструктуры, подготовка инновационных туристических продуктов с учетом географических особенностей региона, привлечение местных предпринимателей.

Нахчыванская Автономная Республика обладает уникальными характеристиками с точки зрения туристического потенциала, и активизация видов туризма здесь может оказать положительное влияние на экономику региона. Можно отметить, что туристическая деятельность делает Нахчыван привлекательным местом для туристов как летом, так и зимой.

**Ключевые слова:** *Туризм, характеристика туризма, виды туризма, туристический продукт, туристическая инфраструктура.*